

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 188 (21.340)

*29 sentyabr 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Serbiya Respublikası Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Ljajicin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Serbiya arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayaraq siyasi əlaqələrimizin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib. Prezident İlham Əliyev iqtisadi sahədə də artıq yaxşı nəticələrin əldə edildiyini bildirib, Bakıda keçirilən Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının səmərəli olacağına və gələcək əməkdaşlığımızın inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu qeyd edib.

Serbiya Respublikası Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Ljajic ölkəsi ilə Azərbaycan arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini və bu sahədə həll edilməmiş hər hansı bir məsələnin olmadığını vurğulayıb. Qonaq bildirib ki, Serbiya tərəfi iqtisadi sahədə də əməkdaşlığımızı inkişaf etdirmək və ölkələrimizin iş adamları arasında yaxşı əlaqələr yaratmaqda maraqlıdır.

## Muzeylərə kollektiv gedişlər davam edir



Sentyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Bəhruz Kəngərli Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, Bəhruz Kəngərli realist portret və mənzərə rəsm yaradıcılığının, eləcə də Azərbaycan boyakarlığında realizmin əsasını qoymaqla bədii sənət xəzinəsinə dəyərli nümunələr bəxş etmişdir. Dövrünün reallıqlarını əsərlərində böyük şövqlə təsvir edən Bəhruz Kəngərli xalqımız qarşısında mühüm xidmətlər göstərmişdir. O, Azərbaycanın tarixi keçmişini və dövrün ictimai-siyasi hadisələrini yaradıcılığında dolğun əks etdirən bir sənətkar kimi yüksək qiymətə layiqdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə Bəhruz Kəngərli Muzeyi yaradılmışdır. 2013-cü ildə yenidənqurmadan sonra açılışı olan muzey yeni eksponatlarla daha da zənginləşdirilmişdir. Rəssamın Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan 200-ə yaxın əsərinin surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə gətirilmişdir. Bütün varlığı ilə sevdiyi Vətəninin gözəlliklərini kağıza köçürən rəssamın əsərləri dəyərli eksponatlardır.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Bəhruz Kəngərli Muzeyini ziyarət etmişlər. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin kollektivləri Cəlil Məmmədquluzadənin ev-muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Xatirə Muzeyində olmuşlar.

Şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da müvafiq olaraq rayonlarda fəaliyyət göstərən muzeyləri ziyarət etmişlər.

**"Şərq qapısı"**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 36 dövlət orqanında inzibati vəzifələrin VI-VII təsnifatına uyğun 299 vakant vəzifənin tutulması üçün elan edilən müsabiqənin test imtahanlarına bu gün yekun vurulacaq. Sonuncu test imtahanında yerli icra hakimiyyəti və məhkəmə orqanlarında işləmək istəyənlər imtahan verəcəklər.***

## Dövlət qulluğuna qəbulla bağlı test imtahanlarına bu gün yekun vurulacaq



Komissiyadan aldığımız məlumata görə, test imtahanlarında bu günədək 406 iştirakçıdan 35 nəfəri bu və ya digər səbəblərdən iştirak etməyib. Yüksək nəticə göstərən namizədlərin sayı isə 65 nəfərdir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən imtahanlarda namizədlərə qanunvericilikdən 40, məntiqi təfəkkür barədə 30, kompüter bilikləri ilə bağlı 15, ümumi dünyagörüşü üzrə 15 olmaqla, ümumilikdə, 100 test tapşırığı təqdim olunub.

İmtahanlarda namizədlərin biliklərini sərbəst şəkildə nümayiş etdirmələri üçün hərtərəfli şərait yaradılıb. Obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə imtahan gedişinin video və audio yazısı qeydə alınıb. İmtahandan dərhal sonra namizədlərə cavab kartı və nəticə barədə arayış verilib. Nəticələr komissiyanın internet saytında yerləşdirilib.

Məlumat üçün bildirək ki, bu ilin avqust ayının 6-da elan edilən müsabiqədə iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər mərhələli şəkildə bu günədək test imtahanlarına qatılıblar. İmtahanda müvafiq keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanırlar.

## Şərur rayonunda yeni quruculuq ünvanları



Bu gün muxtar respublikamızda, eləcə də Şərur rayonunda təhsilə göstərilən qayğı, bu sahədə həyata keçirilən islahatlar çərçivəsində aparılan quruculuq tədbirləri nümunə gücündədir. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən yaradılan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyi üçün ayrılan binada yenidənqurma işləri aparılır, lisey üçün yataqxana binası inşa edilir. Zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan lisey binasının yenidən qurulması "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə edilib. Burada yenidənqurma işlərinə başlanılmasından ötən müddət ərzində binanın fasadında üzləmə işləri aparılıb, interyer müasir tələblər səviyyəsində dizayn edilib, kommunikasiya xətləri yenilənib. Artıq obyektdə son tamamlama işləri görülür. Elektron lövhəli siniflərin, laboratoriyaların, fənn kabinələrinin, kitabxananın yaradılacağı binada yenidənqurma işlərinin sürətlə aparılması onu deməyə əsas verir ki, bina qısa vaxtda müəllim və şagirdlərin istifadəsinə veriləcək.

İş icraçısı Umud İsayevin bildirdiyinə görə, yaxınlıqda inşa olunan yataqxana binasında da işlər sürətlə gedir. Binanın zirzəmi hissəsində və birinci mərtəbəsində divarların və arakəsmələrin hörgüsü yekunlaşmaq üzrədir. 240 şagird yerlik yataqxana binasında hazırda son mərtəbədə qəlib-beton işləri aparılır.

Məlumat üçün bildirək ki, Şərur şəhərində təhsil sahəsində aparılan quruculuq işləri bununla məhdudlaşmayıb. Belə ki, şəhər 2 nömrəli tam orta məktəbin əvvəlki ikimərtəbəli binası müasir tələblərə cavab vermədiyindən bu məktəb üçün yeni binanın inşasına başlanılıb. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq. Hazırda son mərtəbədə qəlib-beton işləri aparılır. Təhsil ocağında elektron lövhəli siniflər, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı yaradılacaq. Kitabxanada internet vasitəsilə digər elektron kitabxanalara da müraciət etmək mümkün olacaq. Kompüter otağında hər biri internetə qoşulmuş kompüter dəstləri quraşdırılacaq. Məktəbdə yaradılacaq fənn laboratoriyaları da müasir tədris-təcrübə avadanlıqları ilə təmin ediləcək. Fizika laboratoriyasında quraşdırılacaq elektron lövhə dərslərin və təcrübə məşğələlərinin müasir metodlar səviyyəsində keçilməsinə şərait yaradacaq.

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tədbirlər planı hazırlanıb. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin nümayəndələrinin həmin sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı muxtar respublikada fəaliyyət göstərən ali məktəblərin hamiliyə götürülmüş pedaqoji profilli ixtisaslarında təhsil alan tələbələrlə görüşləri təşkil olunur.

Növbəti görüş Naxçıvan Müəllimlər İnstitutunun İbtidai sinif müəllimliyi və Riyaziyyat-informatika ixtisasları üzrə II və IV kurslarda təhsil alan tələbələr ilə keçirilib. Görüşdə Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov, nazirliyin şöbə müdiri Firudin Zamanov keçirilən görüşlərin məqsəd və mahiyyətindən danışıblar. Qeyd olunub ki, ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi mühüm əhəmiyyət kəsb edir. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi sərəncamda qarşıya qoyulan vəzifələrin icrası istiqamətində işləri davam etdirir. Yeni tədris ilində ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsi, Təhsil Nazirliyinə hamiliyə verilən ixtisaslar üzrə təhsil alan tələbələr ilə ardıcıl işlərin aparılması diqqət mərkəzindədir.

Görülən işlər çərçivəsində müasir təhsil sistemində pedaqoji yeniliklərin, fənn kurikulumlarının və yeni təlim texnologiyalarının tətbiqi ilə aparılan tədris prosesinin üstünlüklərinin tələbələrə aşılanması təmin ediləcəkdir. Tələbələrə pedaqoji təcrübə zamanı məktəblilərə müasir yanaşma formaları, müəllim-şagird-valideyn əlaqələrinin yaradılması, şagirdlərlə psixoloji işin aparılması yolları, ümumilikdə, təhsil sahəsində mövcud olan bütün yeniliklərin çatdırılması həyata keçirilir.

Görüş zamanı yeni təlim metodu olan kurikuluma aid metodik vəsaitlər, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ümumtəhsil məktəbləri haqqında yazılı məlumatlar tələbələrə paylanılıb.

Görüşdə tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***Nehrəm, Sədərək, Qarabağlar, Cəhri, Yaycı, Dəmirçi! Əslində, bu sıranı daha da artırıb muxtar respublikamızın iri kənd yaşayış məntəqələri haqqında saatlarca söhbət açmaq mümkündür. Naxçıvan Muxtar Respublikasının 200-dən artıq yaşayış məntəqəsi arasında bu kəndlərin yerləşmə mövqeyi, əhalisinin sayı və inkişaf səviyyəsi haqqında "Şəhərləşən kəndlərimiz" rubrikasından dərc olunmuş yazılara və qeydlərimizə yenidən qayıtdıq. Əhalisinin sayı 5 min nəfərdən artıq olan bu altı iri yaşayış məntəqəsi haqqındakı yazıların rubrikası son nəticədə, özü başlığa çıxdı. Nə dərəcədə buna nail olundu, qoy buna tələbkar oxucular qiymət versinlər. Ancaq gəldiyimiz nəticələri ümumiləşdirməyin də faydalı olacağı qənaətindəyik. Beləliklə, Naxçıvan və onun şəhərləşən kəndləri.***

# Naxçıvanın şəhərləşən kəndləri

Şəhərin cazibə qüvvəsi, onun mədəniyyət mərkəzi kimi üstünlükləri həmişə insanları özünə çəkmişdir. Elə buna görə də tarixən kiçik yaşayış məntəqələrinin böyüyüb şəhərlərə çevrilməsini tərəqqi, şəhərlərin kiçilib yox olmasını isə təbii olaraq tənəzzül adlandırmışlar. Şəhər və kənd həyat tərzləri arasında həmişə təzadlı müqayisə predmetləri olsa da, cəmiyyətin inkişafı ilə şəhər və kənd arasındakı fərq təzahürləri də yox olur və köhnədənqalma "kəndli" ifadəsi də öz qüvvəsini itirir. Müasir dünyada yaşıllıq içindəki sakit və mədəni kənd yaşayış yeri, ondan o qədər də uzaqda olmayan iri şəhər isə biznes və sənaye mərkəzi kimi qəbul olunur. Buna görə də Naxçıvan şəhərindən cəmi 9 kilometr məsafədə Nehrəm kəndini ən iri yaşayış məntəqəsi kimi qeyd etmək lazımdır. Bundan sonra yenə də Babək rayonunun Cəhri kəndi Naxçıvan şəhərindən 16 kilometr məsafədə Naxçıvançayın sağ sahilindəki iri yaşayış məntəqəsi kimi diqqəti cəlb edir. Naxçıvan şəhərindən 40 kilometr məsafədə olan Kəngərli rayonunun Qarabağlar, 50 kilometr aralı məsafədə yerləşən Culfa rayonunun Yaycı, 65 kilometr məsafədə Şərur rayonunun Dəmirçi və 80 kilometr məsafədə ölkəmizin ən qərb nöqtəsi Sədərək rayonunun Sədərək kəndini də qeyd edə bilərik. Naxçıvan Muxtar Respublikasında şəhərlərdən başqa, qərbdən şərqə doğru müxtəlif iri kəndtipli yaşayış məntəqələri vardır ki, onlar öz tarixi əhəmiyyətini bu gün də qorumaqdadır. Bu kəndlərdən Nehrəm, Cəhri, Sədərək və Qarabağların qədim yurd yerləri olması, tarixdən gələn qədim adət-ənənələri diqqəti cəlb edir.



Dəmirçi kəndi

Ən qiymətli sərvət olan insan ehtiyatlarına gəldikdə bu altı kəndin, ümumilikdə, 55 minə yaxın əhalisi vardır. Bu rəqəm Avropanın bəzi cırtdan ölkələrinin əhalisindən az qala iki dəfə çoxdur. 15 min nəfərdən artıq sakini ilə Nehrəm kəndi təkcə muxtar respublikamızın deyil, ölkəmizin də iri yaşayış məntəqələrindəndir. Artıq Nehrəm kəndi şəhərtipli qəsəbə görkəmindədir. Cəhri və Qarabağlar kəndləri də eləcə. XVII əsrdə yaşamış türk səyyahı Övliya Çələbinin "Səyahətnamə" əsərində təsvir etdiyi 50 min nəfər sakini olmuş Qarabağlar bu gün Kəngərli rayonunun ən böyük yaşayış məntəqəsidir. Yaxud 1918-ci ildə mənfur ermənilər Culfa rayonunun Yaycı kəndində 2500 nəfər azərbaycanlını qətlə yetirməsəydilər, bu kənd indikindən dəfələrlə böyük ola bilərdi. Xülasə, tarixin müxtəlif dövrlərində Naxçıvanımızın müəyyən kəndləri tənəzzülə uğrasa da, hazırkı inkişaf və tərəqqi dövrü onların həyatının kökündən dəyişilməsinə səbəb olmuşdur.

Muxtar respublikamızın haqqında danışdığımız bu iri kəndləri şəhərə xas sosial həyatın mühüm elementlərinə malikdirlər. Sədərək kəndində mərkəzi, Nehrəm kəndində sahə xəstəxanalarının, Yaycı kəndində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Culfa bazasının, Qarabağlar kəndində Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin olması bu kəndlərin əhəmiyyətini ortaya qoyur. Bu kəndlərin hamısı muxtar respublikamızda uğurla davam etdirilən quruculuq proseslərindən bəhrələnmiş, onlarda müasir şəhər infrastrukturu yaradılmışdır. Bu altı kənddə kəndlinin müasir yaşayış tərzindən xəbər verən villatipli evlərin sayı yüzlərlədir.



Nehrəm kəndi

Şəhər və rayon mərkəzləri ilə sıx əlaqələri olan iri kəndlərimizdə müasir nəqliyyat infrastrukturu yaradılmış və hesablamalara görə, həmin kəndlərin sakinlərində 4 mindən artıq fərdi minik avtomobili vardır. Kənd həyatının digər sosial elementlərini – elektron xidmətləri, restoran və şadlıq evlərini, mərkəzləşdirilmiş su və kanalizasiya şəbəkəsini, müxtəlif növ ticarət və xidmət sahələrini də nəzərə alsaq, eyni zamanda torpaq mülkiyyətçisi kimi bu kəndlərin sakinlərinin timsalında bazar iqtisadiyyatında ideal cəmiyyət parametrlərinə uyğun gələn orta təbəqənin sürətlə formalaşdığını xüsusilə qeyd etmək lazımdır.

Xarici görünüşcə şəhəri daha çox xatırladan müasir Naxçıvan kəndləri öz milli dəyərlərini və təsərrüfatçılıq ənənələrini də qoruyub saxlamaqdadır. Bu, iri kəndlərimizdə də belədir. Kənd böyüyüb daha geniş tanındıqca onun adı ilə bağlı nemətlərin də şöhrəti yayılır. Nehrəmin ağartı və bostan məhsulları, Sədərək üzümü, Qarabağlar və Yaycı soğanı, Cəhrinin kabablıq quzusu qida məhsullarının keyfiyyətinə tələbatın artdığı son dövrlərdə öz əvvəlki əhəmiyyətini saxlayır. Böyük kəndlərimizdən Dəmirçi və Cəhri iri taxıl istehsalçısı kimi, Qarabağlar və Nehrəm isə mühüm tikinti materialları yataqları ilə yaxşı tanınırlar. Kəndlərimizdə çox sayda sənətkarlar, qədim adətlərimizi yaşadan insanlar vardır. Bu baxımdan Qarabağlar türbəsi və Nehrəmdəki İmamzadə abidəsini və böyük maarifpərvər ədib Cəlil Məmmədquluzadənin Xatirə Muzeyini tanışlıq turizmi baxımından xüsusilə qeyd etmək lazımdır.

Naxçıvanda yaradılmış müasir təhsil infrastrukturu ilə bu iri kəndlərimizdə daha yaxından tanış olmaq olar. Bu kəndlərimizdə təhsil alan çox sayda gəncin hərtərəfli yetişməsi üçün dövlətimiz tərəfindən müasir şərait yaradılmışdır. Hər il, təqribən, 500 nəfərin məzun olduğu Nehrəm, Sədərək, Qarabağlar, Cəhri, Yaycı və Dəmirçi məktəbləri müasir təhsil üçün bütün zəruri imkanlara malikdirlər. Təhsildəki nəticələrinə görə yalnız Nehrəm və Sədərəyin daha çox fərqləndiyini, digər kəndlərdə də keyfiyyət faizinin artırılması üçün ciddi işlər aparıldığını deyə bilərik. Nəyə görə də olmasın? Misal üçün, bu gün Culfa rayonunun ucqar Şurud kəndində ali məktəblərə qəbul nəticələri 100 faiz olduğu halda, həmin rayonun Yaycı kəndində bu rəqəmin 25 faizdən yuxarı olmaması fikrimizcə, başqa bir araşdırmanın mövzusu olmalıdır.

Əvvəllər Naxçıvanda "kənd" deyəndə toz basmış kitabxanası olan uçuq-sökük məktəb və pəncərəsinə karton tutulmuş kolxoz idarə binaları, yarımqaranlıq, nəm çəkmiş ərzaq mağazası və bir də hamının yaxşı tanıdığı anbardarı olan bir yaşayış məntəqəsi başa düşülürdü. Şəhərlə gün ərzində cəmi iki dəfə avtobus marşrutu əlaqəsi olan kəndliyə təcili bir şey lazım olsaydı, bu, onun tam bir gün vaxtını aparardı. O dövrdə kəndin girəcəyindəki torpaq yoldan qalxan ağ toz-dumandan "kəndə maşın gəldi" deyib tez qapı-pəncərəni bağlayanlar da, bu maşına tamaşa etmək üçün küçəyə qaçan uşaqlar da vardı. Sübh erkəndən çiyinlərində su daşıyıb, təndir salan evdar qadınların simasına çökmüş qayğı yükü sanki vaxtından çox tez qocaltmışdı bu insanları. Amma çox şükür, dünənin bu günü də varmış. Bir az səbir edib, yurdumuzun hər guşəsini qucaqlamış geniş quruculuğa qovuşduq. İndi kəndin görkəmli yerlərindəki villalarda uşaqların səs-küyünü, qonaqların çal-çağırını gördükcə yenidən arxivlərə, "Naxçıvanın dünəni və bu günü" rubrikasında keçmişə qayıtmağa tələsirəm.



Cəhri kəndi



Sədərək kəndi

# Daşınmaz əmlaka sığorta zəmanəti hər kəsin xeyrinədir

***Sığorta geniş fəaliyyət növüdür. O, geniş bir tələbat kimi cəmiyyətin inkişafı ilə sıx əlaqədardır. Çünki insanın həyatı və iqtisadi fəaliyyəti müəyyən risklərlə müşayiət olunur. Bəzən baş verən yanğın, partlayış, dağıdıcı təbiət hadisələri və başqa bədbəxt hadisələrin yaratdığı risklərlə üz-üzə qalmalı oluruq. Ona görə də insanlara risklərdən qaçmaq, onların vurduğu zərərləri qısa müddətdə aradan qaldırmaq çox vacibdir. Muxtar respublikamızda sığorta işinin günün tələbləri səviyyəsində qurulması üçün görülən bütün məqsədyönlü işlər də vətəndaşların bu vacib tələbatının ödənilməsinə xidmət edir.***

Ümumiyyətlə, sığorta deyəndə insanların maddi mənafelərinin qorunması başa düşülür. Bir çox sığorta növləri, xüsusən də daşınmaz əmlakın icbari sığortası öz cəhətlərinə görə daha əhəmiyyətlidir. Hazırda ölkəmizdə vətəndaşlara məxsus daşınmaz əmlak – yaşayış evləri, binalar, mənzillər və digər tikililər icbari qaydada sığorta olunurlar. Burada əsas məqsəd əhalinin bütün təbəqələrinin sosial müdafiəsinin təmin edilməsidir. Başqa sözlə, gözlənilməz, bədbəxt hadisələr zamanı daşınmaz əmlakın məhv olması və yaxud hər hansı formada itkisi zamanı vətəndaşlara dəymiş zərərin əvəzinin ödənilməsi dövlətin qarşıya qoyduğu əsas məqsəddir. Buna görə də daşınmaz əmlak onun sahibi olan şəxsin istəyindən asılı olmayaraq, icbari qaydada sığorta olunur. Bu sığorta növündəki qaydalar və şərtlər yalnız qanunla müəyyən edilir. Ölkəmizdə 24 iyun 2011-ci ildə qəbul olunmuş "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu sığorta hadisələri zamanı vətəndaşların daşınmaz əmlakına dəymiş zərərlərin əvəzinin ödənilməsi üçün hüquqi təminat verir.

Sığorta hadisələrinə gəldikdə isə mövcud qanuna görə, yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qarşı tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən daxil olan su nəticəsində subasma, təbii fəlakətlər – zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi, üçüncü şəxslərin hərəkətləri nəticəsində daşınmaz əmlakın zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi sığorta hadisəsi hesab olunur. Mövcud qanuna əsasən, belə sığorta hadisələri baş verdikdə vətəndaşlara dəyən zərərlər təminat altına alınmış olur.

Hazırda sığorta hadisələri zamanı vətəndaşların daşınmaz əmlakına dəymiş zərərlərin əvəzinin ödənilməsi dövlətin diqqət mərkəzində olub burada sosial müdafiə prinsipləri ön planda tutulmaqdadır. Mövcud qanuna əsasən, Naxçıvan şəhərində yaşayan vətəndaşlar öz daşınmaz əmlaklarını 40 manatlıq sığortahaqqı ödəməklə 20 min manata, muxtar respublikanın rayonlarında yaşayan vətəndaşlar isə 30 manatlıq sığortahaqqı ödəməklə 15 min manatadək məbləğdə sığortalamalıdırlar.

Daşınmaz əmlakın icbari sığortası ilə bağlı müxtəlif məsələlər qanunla tənzimlənir. Belə ki, sığorta hadisəsi hesab olunmayan digər hallara yol verilməməsi üçün onlar qanunda dəqiq ifadə olunmuşdur. Mövcud qanunun tələbinə görə, sökülməsi barədə dövlət və yerli özünüidarəetmə orqanlarının qərar verdiyi, tikintisi başa çatmayan, yəni yarımçıq tikililər, qəzalı vəziyyətdə olan və ya Azərbaycan Respublikasının qanunvericiliyi ilə icazə verilməyən yerlərdə inşa edilmiş qanunsuz tikilmiş daşınmaz əmlak icbari sığortaya cəlb olunmur. Bundan başqa, sığortalının, faydalanan şəxsin və ya onların rəhbər işçilərinin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər, sığortalanmış əmlaka təmir, emal və ya digər istehsalat məqsədləri üçün tətbiq olunan istehsalat alovunun, yaxud istiliyin təsiri nəticəsində, eyni zamanda yanğın baş vermədiyi halda belə, əmlaka zərərin dəyməsi, hadisə zamanı və ya hadisədən sonra əmlakın hər hansı hissəsinin oğurlanması, qrunt sularının səviyyəsinin dəyişməsi, su borularının və ya rezervuarların təmiri, suyun köçürülməsi və ya tutumunun artırılması nəticəsində axması halları sığorta hadisəsi hesab edilmirlər. Bütün bunların bilinməsi ona görə zəruridir ki, bunun əksi baş verdikdə sığorta hadisəsindən zərər dəymiş vətəndaşların mənafeləri pozulmasın.

Bazar iqtisadiyyatında vətəndaşların rahat həyat sürməsi üçün sığorta tələbatının ödənilməsi mühüm şərtdir. Ölkəmizdə və muxtar respublikamızda gedən müasir iqtisadi inkişaf geniş təsərrüfat fəallığına, əhalinin mobilliyinə, avtomobillərin sayının artmasına, yeni fərdi evlərin sürətlə tikilməsinə, inşaat işlərinin intensivliyinə də təsir göstərmişdir. Bunlar isə eyni zamanda müxtəlif sığorta hadisələrinin də artmasına təsir edir. Ona görə də sığortanın faydalarından istifadə olunmaqla onun bir sıra növlərindən, o cümlədən daşınmaz əmlakın icbari sığortasının yaratdığı imkanlardan yararlanmaq mümkündür. Dövlətimizin bu işə verdiyi zəmanət isə hər kəsin xeyrinədir.

Səhifəni hazırladı: Əli CABBAROV

# Naxçıvan: cəsarətli insanların vətəni

***Bir çox Avropa Birliyi təsisatları və digər beynəlxalq mədəniyyət təşkilatları Avropanın kənarında yerləşən, bəşəriyyətin beşiyi hesab olunan Azərbaycanın Naxçıvan Muxtar Respublikasının arxeoloji, tarixi və mədəni irsi barədə məlumatlar yaymasalar da, Naxçıvan memarlıq məktəbi, qalalarının tarixi, təbii abidələri və qanunun aliliyinin təmin olunduğu stabil demokratik dövlətçiliyi ilə alimləri və arxeoloqları valeh etməyə davam edir.***



Naxçıvan 1700-cü ildə yaşamış Hacı Məhəmməd Nəqinin doğulduğu torpaqdır. O, Ordubad rayonunun Dəstə kəndinin şərq tərəfində Tub Basar kövşənindən axan Vənəndçay üzərində hazırda qalıqları qalan Hacı Nəqi körpüsünü inşa etmişdir. Naxçıvan XII əsrdə Eldənizlərin sarayında yaşamış və Əcəmi memarlıq məktəbinin tələbəsi olmuş memar Əmirəddin Məsud Naxçıvaninin vətənidir. Əmirəddin Məsud Azərbaycanın dini memarlığının inkişafında mühüm rol oynamışdır.




Naxçıvanda, Araz çayından 200 metr məsafədə 0,8 hektarlıq ərazini əhatə edən qədim yaşayış məskənlərindən olan Ərəbyengicə kəndi yerləşir. Yerli arxeoloqlar tərəfindən toplanmış materiallar burada Eneolit və Kür-Araz mədəni təbəqələrinin mövcudluğunu təsdiq edir. Gildən hazırlanmış Eneolit keramika nümunələrindən gündəlik həyatda istifadə edilmişdir. Bu keramika nümunələri I Kültəpə nümunələrinə oxşayır. Naxçıvanın görkəmli tarixçisi N.H.Əliyevə görə, kənddə tapılmış digər arxeoloji nümunələr bu kəndin tarixinin bizim eradan əvvəl IV-III minilliyə aid olmasını təsdiq edir. Bundan başqa, Culfa rayonunun Ərəfsə kəndində 5 hektarlıq ərazidə heyranedici arxeoloji əsərlər, qab nümunələri, monoxrom boyalı gil qablar aşkar edilmişdir. V.Əliyevin və A.Ələkbərovun rəhbərliyi ilə aparılan arxeoloji tədqiqatlar nəticəsində ərazidən tapılmış gil qablar, əmək alətləri, dən daşları, həvəngdəstələr sübut edir ki, bu kənd bizim eradan əvvəl II minilliyə aiddir. 1590-cı ildə aşkar olunmuş tarixi sənədlərə əsasən, qədim zamanlarda Ərəfsə kəndi Ərəfsaq adlandırılmışdır. L.N.Gumiliyev, İ.M.Dyakanov və E.E.Kuzminanın apardıqları elmi tədqiqatlar təsdiq edir ki, Skif türkləri Naxçıvandan Orta və Mərkəzi Asiya, eləcə də Sibirə köçmüşlər. Skif türklərinin Türk-Azərbaycan tayfalarından olduqları tarixçilər tərəfindən təsdiq edilir. Ərəfsə sözü də “skiflərin və cəsarətli insanların vətəni” deməkdir.

Culfa rayonundakı Əlincəçayın sol sahilində, təpənin üzərində orta əsrlərə aid ziyarətgah yerləşir. İki böyük otaqdan ibarət həmin pirin cənub və şərq tərəfə eyvanları var. Əsas ziyarət obyekti nisbətən böyük ölçüyə malik mərkəzi otaqdakı qəbirdir. Pirin yerində əvvəllər xanəgahın olması barədə mülahizələr mövcuddur. Bundan əlavə, bizim eradan əvvəl IX əsrə aid olan böyük əhəmiyyətə malik arxeoloji yaşayış yerindən biri də Ərəzin kəndidir. Burada aşkar olunmuş əmək alətlərinin qırıntıları, çəhrayı rəngli şirli və şirsiz saxsı qab parçaları və bişmiş kərpic nümunələri Ərəzin əhalisinin qədim yaşayışı haqqında məlumat verir. Aparılan qazıntılar zamanı abidənin bir hissəsində 2 metr qalınlığında mədəni təbəqə, həmçinin kül dolu ocaq yerləri və misdən hazırlanmış qarmaq aşkar edilmişdir.

Sədərək rayonunda yerləşən və XVII-XVIII əsrlərə aid olan Koroğlu qalası digər mühüm tarixi ərazilərdəndir. Bu qalaya mərdlik, igidlik, ləyaqət rəmzi hesab edilən Azərbaycan xalqının qəhrəmanı Koroğlunun adı verilmişdir.

Dəlmə qalası Ordubad rayonunda Sabirkəndin yaxınlığında Dəlmə nekropolundan 700-750 metr qərbdə dağın zirvəsində olan arxeoloji abidədir. Qalanın şimal divarının eni 2 metrə qədərdir. Aparılan arxeoloji qazıntılar sübut edir ki, qala qısa müddət istifadə edilmiş və qalanın daxilində kürənin qalıqları mövcud olmuşdur. Bu növ hərbi istehkamlardan Naxçıvanın digər kəndlərində də istifadə edilmişdir.

Sonda XIV əsr memarı Əhməd Əyyub oğlu Hafiz Naxçıvaninin xidmətlərini qeyd etməmək olmaz. Çünki o, Naxçıvan memarlıq məktəbinin inkişafında mühüm rol oynamış və müntəzəm olaraq Avropa memarlıq məktəbinə yüksək təsir göstərmişdir. Əhməd Əyyub Naxçıvani Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndələrindən biridir. Qarabağlar türbəsinin müəllifidir. Ə.Əyyub tərəfindən istifadə edilən simmetrik və yarımdairə üslubu Əcəmi memarlıq məktəbinin ənənəsidir. Onun istifadə etdiyi çoxrəngli ornamentlərin birləşməsi yalnız Azərbaycanda deyil, həmçinin Avropada memarlığın inkişafına böyük töhfə vermişdir.

Avropa tarixçiləri və alimləri gec-tez anlayacaqlar ki, Orta Asiya tarixçiləri ilə birlikdə Naxçıvanın abidələrinə, arxeoloji tədqiqat ərazilərinə, memarlıq məktəbinə və Azərbaycan Respublikasının rəmzi qalalarına əhəmiyyət vermədikləri müddətcə Avropanın qədim və orta əsr tarix mozaikası həmişəki kimi tamamlanmamış qalacaqdır.

***Peter TASE***
***23.09.2015***
***Amerika Birləşmiş Ştatlarının***
***“Eurasia review” qəzeti***

# Yubiley tədbiri keçirilmişdir

***AMEA Naxçıvan Bölməsində Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Saleh Məhərrəmovun anadan olmasının 50 illiyinə həsr olunmuş yubiley yığıncağı keçirilmişdir.***

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Saleh Məhərrəmovun keçdiyi ömür yolundan, onun Azərbaycan elminin, təhsilinin inkişafındakı xidmətlərindən danışmışdır.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin prorektoru, professor Məmməd Rzayev “Əməkdar elm xadimi Saleh Məhərrəmovun ömür yolu, elmi və pedaqoji fəaliyyəti” mövzusunda məruzə etmişdir.

Qeyd edilmişdir ki, Saleh Məhərrəmov 101 elmi məqalənin, 3 monoqrafiyanın, 2 dərs vəsaitinin, 2 proqram, 2 təklif və 1 metodik vəsaitin müəllifidir. Onun rəhbərliyi altında 10 fəlsəfə doktoru dissertasiya işi yerinə yetirilir.



Yığıncaqda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, “Naxçıvan” Universitetinin rektoru, professor İsmayıl Əliyev, Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, dosent Qərib Allahverdiyev, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, dosent Bəhruz Məmmədov çıxış edərək Saleh Məhərrəmovun elmi fəaliyyətini yüksək qiymətləndirmiş və ona gələcək işlərində uğurlar arzulamışlar.

Sonda Saleh Məhərrəmov ona göstərilən diqqətə və elmi fəaliyyətinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova öz dərin minnətdarlığını ifadə etmişdir.

# Tariximizin saxlanc yeri




***Bu gün arxivlərdə qorunan sənədlər bir zamanlar qələmə alınaraq bu günümüzə ötürülüb. Vaxtilə yazılan memuarlar, xatirələr, gündəliklər, tarixi romanlar, siyasətnamələr, təzkirələr və sair bu kimi bir çox mənbə bizə kömək edir ki, keçmişimizi, kimliyimizi öyrənək, araşdıraq. Bu baxımdan muzeylər, kitabxanalar və arxivlər xüsusi əhəmiyyət kəsb edir. Arxivlərin insanların həyatında rolu danılmazdır. Onlar bizə kömək edir ki, özümüzü öyrənək. Arxivlərdə işləyərkən insan özünü sirli dünyada sanır. Buranın aurası insanda bağlılıq yaradır. Daha çox öyrənməyə meyillilik yaranır.***





Ümummilli liderimiz Heydər Əliyev arxivlərin əhəmiyyətini nəzərə alaraq ölkəmizdə arxiv işinin inkişafına xüsusi qayğı göstərmiş və bu barədə demişdir: ***“Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir”.***

Respublikamızda arxiv quruculuğu çox çətin bir yol keçmişdir. Bu istiqamətdə çox işlər görülmüş, böyük əmək sərf edilmişdir. Ölkəmiz qədim dövlətçilik tarixinə və mədəniyyətə malik strateji bir region kimi daim yadelli işğalçıların diqqətini cəlb etmişdir. Başqa sözlə desək, uzun illər Azərbaycan əraziləri müxtəlif işğalçı dövlətlərin mübarizə meydanına çevrilmiş, nəticədə, bu ərazidə yaranan qiymətli arxiv sənədləri ya məhv edilmiş, yaxud da xarici işğalçılar tərəfindən talanıb aparılmışdır. Bu gün Avropanın, Asiyanın, Amerikanın müxtəlif ölkələrindəki muzey və arxivlərdə xalqımızın tarixinə aid saxlanılan çoxlu qiymətli sənədlər və nadir əlyazmalar dediklərimizə əyani sübutdur.

Azərbaycan tarixinin yazılı irsini mühafizə edən dövlət arxivinin yaranması ölkədə sovet hakimiyyəti qurulmasının ilk illərinə təsadüf edir. Muxtar respublikamızda arxiv işinin əsası 1925-ci ildə Mərkəzi Dövlət Arxivinin yaradılması ilə qoyulmuş, 1930-cu ildə isə Naxçıvan Arxiv İdarəsi təşkil edilmişdir. Arxiv İdarəsi və Mərkəzi Dövlət Arxivi 1960-cı ilə qədər Naxçıvan Daxili İşlər Komissarlığının tabeliyində fəaliyyət göstərmiş, 1960-cı ildən sonra hər iki qurum Daxili İşlər Komissarlığının tabeliyindən çıxarılmış və Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinin tabeliyinə verilmişdir. Muxtar respublikada arxiv işinin təkmilləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər müstəqillik illərində də davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında” Fərmanına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 6 dekabr tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazasında Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin binası əsaslı təmir və yenidənqurmadan sonra 2012-ci ildə istifadəyə verilmişdir.

Qeyd edək ki, arxivdə elmin, mədəniyyətin və ictimai həyatın bir çox sahələrini əhatə edən 1023 fondda 80 mindən çox kağız əsaslı idarəçilik işi, elm, mədəniyyət, ədəbiyyat və incəsənət, dövlət xadimlərinin 2 minə yaxın işdən ibarət elmi və texniki sənədləri, 84 minə yaxın foto və 4 mindən çox kino sənədi mühafizə olunur.

Arxivdə XIX əsrin əvvəllərindən, yəni 1831-ci ildən günümüzədək bir çox qiymətli sənədlər qorunur. Bu sənədlər içərisində Naxçıvan qəza polis idarəsinə, xalq məktəbləri müdiriyyətinə, hərbi komissarlığa, torpaq şöbəsinə, Culfa, Şahtaxtı, Baş Noraşen gömrük məntəqələrinə, Culfa poçt-teleqraf kontoru və digər təşkilatlara aid materiallar vardır.

Burada XX əsrin əvvəllərində ermənilərin Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında törətdikləri soyqırımına dair bir çox məlumat saxlanılır.

Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi inzibati və sənədlərin saxlanma fondları olmaqla, iki hissədən ibarətdir. İnzibati hissə zirzəmi ilə birlikdə 5, fondlar olan hissə isə 6 mərtəbəlidir. Binanın inzibati hissəsində kitabxana və iş otaqları, kino-foto sənədləri və kompüter otaqları, 64 yerlik iclas zalı vardır. Fondlarda dünyanın aparıcı ölkələrində istifadə olunan arxiv avadanlıqları, eləcə də yanğını xüsusi qazla söndürməyə imkan verən müasir yanğınəleyhinə sistem quraşdırılmışdır.

Biz müasir texnologiyanın yeniliklərindən istifadə olunaraq qurulmuş fondları gəzdik. Burada sənədləri qorumaq üçün havatənzimləyicilər quraşdırılmışdır. Bu da sənədlərin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayan əhəmiyyətli amillərdən biri kimi son dərəcə qiymətlidir.

Arxivdə çalışan hər bir əməkdaş öz işinə diqqətlə yanaşırdı. Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi Fəxrəddin Cəfərov bildirdi ki, əsrlərdən-əsrlərə qiymətli yadigar kimi saxlanılan bu arxiv sənədləri həyatımızın arxada qalmış günləri, tarixi səhifələridir. Məhz buna görə də bu sənədlər qoruna-qoruna arxiv rəflərinə toplanır. Ona görə də arxivlərə sənədlər xəzinəsi deyirlər. Biz bu xəzinəni qorumaq və mühafizə etmək üçün səylə çalışırıq.

Arxivə olan maraq barədə xəbər aldıqda isə Fəxrəddin Cəfərov dedi ki, arxiv ziyalılarımızın, tədqiqatçılarımızın maraq dairəsindədir. Buraya bir çox yerlərdən gələn tədqiqatçılar da olmuşdur.

Elmi-tədqiqat işimlə bağlı olaraq bir çox arxivdə çalışan biri kimi qeyd etməliyəm ki, həqiqətən də, muxtar respublikamızda arxiv işinə ciddi yanaşılır. Buradakı hər bir sənəd xüsusi həssaslıqla mühafizə olunur. Texnologiyanın nailiyyətlərindən istifadə edilərək qurulan mühafizə sistemləri ilə bir çox ölkədə yerləşən arxivlərdə belə qarşılaşmamışam. Bu isə keçmişimizə olan qayğının və hörmətin nümunəsi kimi son dərəcə qiymətlidir.

*Arxivlər muxtar respublikanın tarixini, mədəniyyətini və inkişaf yollarını öyrənmək baxımından əhəmiyyətli rola malikdir. Hər bir xalqın tarixi, ulu keçmişi, görkəmli şəxsiyyətləri haqqında dəyərli materialların nəsildən-nəslə ötürülməsində arxivlərin rolu danılmazdır. Gəlin birlikdə tariximizi qoruyaq...*

**✍ Nərgiz İSMAYILOVA**

# Naxçıvanda “Dədə Qorqud”un izi ilə: Qaraçuq qədim oğuz yurdudur

***Naxçıvan toponimiyasında Dədə Qorqud yadigarı kimi tanınan Qaraçuq kəndi Araz çayı boyunca uzanan qədim karvan yolunun kənarında yerləşib və əsrlərboyu öz adını qoruyub saxlayıb. Ancaq 1963-cü ildə Araz su qovşağının tikintisi ilə əlaqədar keçmiş SSRİ ilə İran arasında bağlanan müqaviləyə əsasən, kənd indiki əraziyə köçürülmüş, 1970-ci ildə kəndin adı dəyişdirilərək böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin şərəfinə Cavidabad adlandırılmış, 1999-cu ildə isə kəndin Qaraçuq adı yenidən bərpa olunmuşdur.***

2009-cu ilə qədər Babək rayonunun tərkibində olmuş Qaraçuq kəndi həmin il “Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri və Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, Naxçıvan şəhər inzibati ərazi vahidinin hüdudlarına daxil edilmişdir.

Tarixi bir kənd olan Qaraçuğun bina olunması və adının mənşəyi haqqında əlimizdə dəqiq məlumat yoxdur. Bu ada ilk dəfə “Kitabi-Dədə Qorqud” dastanlarında rast gəlirik. Dastandan üzü bəri 1590-cı ildən sonrakı sənədlərdə kəndin adı Qaraçuq şəklində qeyd olunmuşdur. Mənbələrdə yazılır ki, “Qaraçuğ Naxçıvanda kənddir. 1755-ci ildə bütün əmlakı ilə bir şəxsdən başqa şəxsə satılması barəsində olan qəbalədə bu kəndin adı eynən “Qaraçuğ” şəklində qeydə alınmışdır”.

Qaraçuq adının mənşəyi dilimizdə mübahisə yaradan onomastik vahidlərdəndir. İnandırıcı olmayan söyləmələrə görə, kəndin əhalisinin əksəriyyəti daha çox qara çuxa geydikləri üçün buraya Qaraçuxalılar-Qaraçux-Qaraçuq adı verilmişdir. Digər bir söyləməyə görə isə kəndin adı yerləşdiyi Qara zığ sahəsinin adından götürülmüşdür. Sözsüz ki, bu fikir də ağlabatan deyil. Çünki Qaraçuq adlı toponimlərin yayılma arealı geniş olduğundan bu sözün mənşəyini Qara zığla bağlamaq əsassızdır. Digər mənbədə isə bura türk dillərində qara “torpaq” və “çox” sözlərinin birləşməsindən əmələ gəlib “çox münbitli torpaq” mənasında açıqlanır və kənddə kəngərlilərə məxsus qaraxanbəyli, yurtçu, billici, hacıvar, cığatay, qoman kimi tayfalara məxsus ailələrin yaşadığı qeyd olunur.

Qaraçuq sözü “Kitabi-Dədə Qorqud” dastanlarında bir neçə yerdə və dastanın ayrı-ayrı nəşrlərində müxtəlif fonetik variantlarda işlədilir və oğuzların Salur boyundan olan Qazan xan “Qaraçuğun qaplanı”, onun çobanı isə “Qaracıq çoban” epitetləri ilə təqdim olunur. Dastanın 1939-cu il nəşrində bu söz Qaraçıq, 1962 və 1988-ci il nəşrlərində isə Qaraçuq şəkillərində işlənir.

Qaraçuq adının məna açımı haqqında danışan S.Əlizadə toponimin “Kitabi-Dədə Qorqud”un mətnində üç mənada: “at adı” (xüsusi isim), “qara camaatın, hamının mindiyi və minə biləcəyi at”, “yer adı” (toponim) mənalarında işləndiyini bildirir və Qarağuc sözünün Qaracığın metateza nəticəsində dəyişmiş variantı kimi təqdim edir. Ş.Cəmşidov Qaraçuq adının Bərdə şəhərindən cəmi 40-50 kilometr məsafədə yerləşən eyniadlı dağın adı ilə bağlı olduğunu, bu sözün Qaradağ-Qaraduğ-Qaraçuq şəklində Qaradağ sözündən törədiyini yazır və ifadənin etimologiyasını dilimizdəki dağ sözünün dəyişilmiş forması hesab edir. Ş.Cəmşidovdan fərqli olaraq, S.Babayev Qaraçuq toponimini Naxçıvan şəhərindəki eyniadlı kəndin adı ilə bağlı yarandığını, iki hissədən ibarət (Qara-çuq) olan bu sözün birinci tərəfinin “geniş, böyük”, çıq şəkilçisinin isə kiçiltmə mənalarında işləndiyini yazır. A.Bayramov da bu adı Naxçıvan ərazisi ilə bağlı açıqlayaraq Qaraçuq variantına üstünlük verir və sözü etnotoponim kimi təqdim edərək yazır ki, Qaraçuq leksik vahidi salar tayfasından olan bir eli, tirəni və ya Qazan xanın yurdunu bildirməkdədir. Bu söz əvvəlcə köməkçi ad kimi işlənmiş, sonra şəxs və tayfa adına, daha sonra isə toponimə çevrilmişdir. F.Sümər isə Sır Dərya (Ceyhun, İnci) çayının orta yatağındakı Fəraq şəhərini və həmin ərazidəki Karaçuk dağlarını oğuzların yurdu hesab edir. O, M.Kaşğarinin Karaçukun oğuz ölkəsinin adı olduğunu və öz xəritəsində də Karaçuk dağını oğuz yurdu kimi göstərdiyini yazır, ancaq sözün leksik-semantik mənasına toxunmur. F.Kırzıoğlu mənbələrə istinad edərək Karacuk-Karacıkın Diyarbəkirdəki Karaca dağ olduğunu yazır və qeyd edir ki, E.Rossi də Kara çukun Diyarbəkirdə olduğunu təsdiqləyir. Müəllif belə nəticəyə gəlir ki, dastanda həm Bayandur xan, həm də Salur Qazanın sülalələrinə mənsub olan Karaçuk ilk oğuz yurdu olan Xorasandakı Karaçuk dağının adı ilə bağlıdır.

İ.Cəfərov qəzet məqaləsində adın mənşəyinə toxunaraq Qaraçuq sözünün işıq ucunu oğuzlar haqqında söylənilən məlum əfsanə ilə əlaqələndirir: “Qaraçuqun uq sonluğu ox sözünü əks etdirir. Əgər ç hərfini də nəzərə alsaq, aydın olar ki, üçox dil vahidinin üç forma daşıyıcısı “çox-çux” Qaraçuq sözündə qorunub saxlanılmışdır. Biz ü saitini asanlıqla bərpa edə bilərik. Bu halda Qara-üç-ox sözlərinin qovuşma prosesi diqqəti cəlb edir. Yəni Qaraüçox ifadəsi öncə Qaraüçox təkamül mərhələsini yaşamış, sonradan dilimizdə iki saitin yanaşı işlənməsi çətinlik törətdiyindən uçuq sözünün ilk saiti eliziya hadisəsinə məruz qalmışdır.

Göründüyü kimi, Qaraçuq adının mənşəyinə müxtəlif istiqamətlərdən yanaşılır və toponimin coğrafi məkanı da dəqiq müəyyənləşdirilmir. Bizə belə gəlir ki, bu adı konkret ərazi ilə bağlamaq və ya onun sərhədini hər hansı bir kənd və dağ çərçivəsində məhdudlaşdırmaq düzgün deyil. Çünki oğuzların Volqaboyu, Bolqarıstan, Azərbaycan, Qafqaz, Krım, Orta Asiya, İran və Türkiyədə məskunlaşmaları həmin ərazilərdə Qaraçuq adının yaranmasına səbəb olmuşdur. Odur ki, Qaraçuq sözünü oğuzların yurd yeri, məskəni mənasında açıqlamaq daha inandırıcıdır. Bu fikri sözün leksik-semantik mənası və Qaracuq-Qaracıq dağının o vaxt oğuzların məskəni adlandırmaları da təsdiqləyir.

Qaraçuq adı qara və çuq tərkib hissələrindən ibarətdir. Burada qara sözü “böyük”, “iri”, “geniş”, “ərazi” mənalarında, çuq sözü isə qədim türk dillərində çaq sözünün fonetik variantı olub “yer”, “məkan”, “yurd” anlamlarında işlənir. Qaraçuq sözü birlikdə “böyük yer”, “iri məkan”, “geniş yer”, “məkan”, “böyük yurd” anlayışları yaradır və “oğuzların yaşadığı yurd, məkan” mənalarında işlənir. Demək, oğuzlar harada yaşayıblarsa, oraya Karaçuk-Qarağuc-Qaracıq-Qaraçoq-Qaraçaq-Qaraçıq-Qaraçuq adlarını veriblər.

Bu fikri Qaraçuq variantlı onomastik vahidlərin coğrafiyasının genişliyi də təsdiqləyir. Şübhəsiz ki, Naxçıvan şəhərindəki Qaraçuq oykonimi də vaxtilə oğuzların yaşadığı yurd yerlərindən biridir. Yeri gəlmişkən onu da qeyd edək ki, “Dədə Qorqud kitabı”nda işlədilən “Qaraçuğun qaplanı” epitetini heç də bir kəndlə, kiçik bir ərazi ilə məhdudlaşdırmaq düzgün deyil. Çünki “Qaraçuğun qaplanı” birləşməsində Qaraçuq sözü “böyük bir elin”, “böyük bir yurdun”, “Oğuz elinin igidi, aslanı” mənalarında dərk olunur. Unutmaq olmaz ki, Bayandır xan böyük bir ərazini əhatə edən oğuz elinin xanlar xanıdır. Bayandır xandan sonra hakimiyyətin idarə olunmasında ikinci şəxs Salur Qazandır. Demək, Bayandır xan hansı ərazinin xanlar xanıdırsa, Qazan xan da həmin elin igidi, cəsur əreni, qaplanıdır.

**Adil BAĞIROV**
***AMEA-nın müxbir üzvü***

# Aralıq kənd stadionu yenidən qurulub





Bu gün muxtar respublikada yaradılan müasir idman infrastrukturu istənilən yarışı yüksək səviyyədə keçirməyə imkan verir. Naxçıvanda idmançılar üçün yaradılan şərait onların dünya arenalarında uğur qazanması ilə nəticələnir. Uğurlu idman siyasəti nəticəsində muxtar respublikada mütəmadi olaraq tədbirlər, yarışlar, turnirlər təşkil edilir, hər il idman infrastrukturu müasirləşdirilir. Naxçıvanın beynəlxalq yarışlara ev sahibliyi etməsi bunun bariz nümunəsidir. Bu cür infrastruktur eyni zamanda gənclərin sağlam, idmançıların peşəkar idmançı kimi formalaşması baxımından böyük rol oynayır.

Muxtar respublikanın şəhər və rayonlarında yeniləşən idman obyektləri gənc nəslin bu sahəyə olan marağını gündən-günə artırmaqdadır. Müasir avadanlıqlarla təmin olunan belə idman obyektlərindən biri də Şərur rayon Aralıq kənd stadionudur. Ötən gün istifadəyə verilən kənd stadionu qısa vaxt kəsiyində müasir standartlara cavab verən şəkildə yenidən qurulub. Uzunluğu 90 metr, eni isə 45 metr olan təbii öt örtüklü stadionun ərazisində 160 nəfərlik oturacaqlar quraşdırılıb. Stadionda idmançıların rahatlığı üçün 2 soyunub-geyinmə otağı və hakim otağı tikilib. Stadionun ot örtüyünün suvarılması üçün su sistemi quraşdırılıb. Meydança dünya standartlarına cavab verən (7,32 metr x 2,44 metr) qapılar və qapı torları ilə təmin olunub.

Bu stadiondan Aralıq kənd tam orta məktəbinin şagirdləri, həmçinin qonşu kəndlərin yeniyetmə və gəncləri də istifadə edəcəklər.

Yenidən qurulan stadion kənd sakinlərinin də ürəyincə olub. Aralıq kənd sakini Zaman Nəcəfov bizimlə söhbətində yeni stadionun yeniyetmə və gənclərin ixtiyarına verilməsini kənd sakinləri tərəfindən böyük sevinclə qarşılandığını vurğuladı: “Bu gün muxtar respublikada idmanın kütləviliyi üçün tədbirlər həyata keçirilir, idman obyektləri tikilib gənclərin ixtiyarına verilir. Belə idman obyektlərindən biri də kəndimizin stadionudur. Təbii ki, gənclərin sağlam ruhda böyüməsi və idmana maraq göstərməsi üçün bu cür idman infrastrukturlarının olması vacibdir. İdman hər zaman muxtar respublika rəhbərinin diqqət mərkəzində olub. Daim gənclərə, idmançılara böyük qayğı ilə yanaşan muxtar respublika rəhbərinə kənd sakinləri adından minnətdarlığımızı bildiririk”.

**Ceyhun MƏMMƏDOV**

# Uşaq musiqi məktəbləri konsert proqramları ilə çıxış edirlər

Dünən Şahbuz rayonundakı Kolanı Kənd Uşaq musiqi məktəbinin kollektivi rayonun Gömür kəndində konsert proqramı ilə çıxış edib.

Konsert proqramında musiqi məktəbinin solo ifaçıları tərəfindən müxtəlif əsərlər, Azərbaycan xalq mahnı və musiqiləri, muğam və təsnifləri, bəstəkar mahnıları səsləndirilib. Sazçalanlar bir neçə aşıq havası ifa etməklə xalqımıza məxsus bu milli musiqinin ecazkarlığını bir daha izhar ediblər. Gömür kənd ziyalılarının, ictimaiyyət nümayəndələrinin qarşısında çıxış edən musiqi məktəbi kollektivinin üzvləri tədbir boyu tamaşaçıları heyrətləndiriblər. Çünki səlis, məharətlə və ürəkdən ifa olunan hər bir mahnı, musiqi sanki ilk dəfə ifa olunurmuş kimi dinləyicilərdə xoş ovqat yaradıb.

Məlumat üçün bildirək ki, həmin gün Ordubad Şəhər Uşaq musiqi məktəbinin kollektivi rayonun Aşağı Əylis kəndində, Şərur rayonundakı Ələkli Kənd Uşaq musiqi məktəbinin şagirdləri Tumaslı kəndində, Babək rayonunun Zeynəddin Kənd Uşaq musiqi məktəbinin kollektivi Naxışnərgiz kəndində konsert proqramları ilə çıxışlar ediblər.

Qeyd edək ki, konsertlər kənd mərkəzlərində keçirilib. Müasir üslubda tikilmiş bu sosial obyektlərdə belə tədbirlərin təşkili ənənə halını alıb. Əvvəllər hər hansı bir tədbirin keçirilməsi üçün nümunəvi məkanın olmaması kənd sakinlərini də narazı salırdı. Lakin bu gün tez-tez eşitdiyimiz kəndlə şəhər arasındakı fərq aradan qaldırılıb ifadəsi belə tədbirlər zamanı bir daha öz təsdiqini tapır.

**Xəbərlər şöbəsi**

# Ahıllar Əshabi-Kəhf ziyarətgahında olublar

Muxtar respublikada ahıl insanlar dövlətimizin hərtərəfli qayğısı əhatəsində yaşayırlar. Onların sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır, cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, onların muxtar respublikanın tarixi, görməli yerlərinə gəzintiləri təşkil edilir, əlamətdar günlərlə bağlı görüşlər keçirilir. Bu tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 1 oktyabr Beynəlxalq Ahıllar Günü münasibətilə silsilə tədbirlər keçirilir.

Sentyabrın 28-də rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən sosial xidmət göstərilən bir qrup ahıl muxtar respublikamızın müqəddəs yerlərindən olan “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksini ziyarət edib. Ahıllara qurban payları təqdim olunub, həmçinin onlar üçün çay süfrəsi açılıb.

Ahıllar onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Əsgərov Yəhya Həsən oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Bulqan kənd sakini İbrahimova Zəhra Süleyman qızının adına olan JN-944A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 731